22 dekabr 2022-ci il, cümə axşamı Xalq qəzeti

**Təqvim yada salır**

# “Uzaq sahillər”in əfsanəvi partizanı

**Azərbaycan xalqının tarixi qəhrəmanlarla və onların göstərdikləri şücaətlərlə zəngindir. Belə qəhrəman Vətən oğullarından biri də Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə idi. O, 1918-ci il dekabrın 22-də Bakının Novxanı kəndində anadan olub. Uşaqlıqdan qeyri-adi istedadı ilə həmyaşıdlarından fərqlənən Mehdi bacarıqlı üzgüçü, istedadlı rəssam idi.**



Onun təhsil aldığı 19 nömrəli məktəbin direktoru yazıçı Süleyman Sani Axundov olub. Mehdidə Vətənə, xalqa dərin sevgi hisslərini məhz bu böyük şəxsiyyət formalaşdırıb. O,1936-cı ildə Azərbaycan Rəssamlıq Məktəbini bitirib. Leninqrad (indiki Sankt–Peterburq) Xarici Dillər İnstitutunda və indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alıb.

Mehdi Hüseynzadə 1941-ci ildə orduya çağırılıb,1942-ci ildə Tbilisidə piyada hərbi məktəbini qurtarıb. Həmin ilin iyulunda Stalinqrad ətrafındakı döyüşlərdə iştirak edib, avqustda Kalaç şəhəri yaxınlığında ağır yaralanaraq əsir düşüb. Ukrayna, Polşa, İtaliya və keçmiş Yuqoslaviyanın hərbi əsir düşərgələrində olub.

Soydaşımız 1944-cü ilin əvvəllərində bir qrup yoldaşı ilə əsirlikdən qaçıb. Yuqoslaviya partizanlarına qoşularaq müqavimət hərəkatında “Mixaylo” təxəllüsü ilə tanınan Mehdi alman faşistlərinə qarşı rəşadətlə mübarizə aparıb.

İgid həmyerlimiz bir sıra strateji məlumatların toplanmasında, hərbi eşalonların, düşmən qərargahlarının, körpülərin, döyüş sursatı anbarlarının partladılmasında, əsirlərin azad edilməsində fəal iştirak edib.

Əfsanəvi partizanın başçılığı altında İtaliyanın Udineze şəhərindəki faşist həbsxanasına hücum ilə 700 hərbi əsir, o cümlədən 147 sovet əsgər və zabiti azad olunub. O, keçmiş Yuqoslaviya Xalq Azadlıq Ordusu 31-ci diviziyasının qərargahı yanında xüsusi kəşfiyyat qrupu yaradaraq ona başçılıq edib. Hitlerçilər “Mixaylo”nu ələ keçirənə, yaxud öldürənə 400 min lirə mükafat təyin etmişdilər.

Mehdi Hüseynzadə növbəti tapşırığı yerinə yetirib geri dönərkən faşistlərlə qarşılaşıb. Əfsanəvi kəşfiyyatçı qeyri-bərabər döyüşdə xeyli düşmən qüvvəsini məhv edərək, ələ keçməmək üçün son güllə ilə özünü vurub. Əvvəl Vitovle, sonra isə Çepovani kəndində dəfn olunub.

Bu gün Sloveniyada məşhur azərbaycanlı qəhrəmanın adını daşıyan məktəb fəaliyyət göstərir, bundan başqa, qəsəbə, küçə və bir gəmi onun adınadır. 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə unudulmaz qəhrəmanın heykəli qoyulub. Onun haqqında kitablar, yazılıb. Tanınmış yazıçılar H.Seyidbəyli və İ.Qasımov “Mixaylo”nun qəhrəmanlıqlarını əks etdirən “Uzaq sahillərdə” povestini qələmə alıblar. 1957-ci ildə isə kinorejissor Tahir Əliyev həmin əsərin ssenarisi əsasında eyniadlı filmi ərsəyə gətirib.



2006-cı ildə Prezident İlham Əliyevin Sloveniyaya rəsmi səfəri zamanı razılaşdırılmaya əsasən, 2007-ci ildə Mehdi Hüseynzadənin abidəsinin açılışı olub.

***Hazırladı: E.ABBASOV, “Xalq qəzeti”***